**DOI: https://doi.org/10.59849/2957-3882.2023.2.51**
**UOT 821.512.162**

# MÖVLANA İRSİ AZADƏ RÜSTƏMOVANIN TƏDQİQATLARINDA

**Nərmin RZAYEVA***

***Açar sözlər:*** *Azadə Rüstəmova, Mövlana, "Məsnəvi-ye mənəvi", divan*

## XÜLASƏ

Məqalədə Azadə Rüstəmovanın tədqiqatlarında Mövlana irsi araşdırılmışdır. Belə ki, araşdırma üç hissədən ibarətdir. Birinci hissə "Mövlana Cəlaləddin Rumi tərcümeyi-halından bəzi məqamlar", ikinci hissə "Mövlana Cəlaləddin Ruminin sufi baxışları", üçüncü hissə "Mövlana şeirinin arxitektonikası və sənət özəllikləri" adlanır. Üçüncü hissə iki bölməni əhatə edir: a) "Məsnəvi"nin üslubi xüsusiyyətləri. Mövlanada iç və dış məzmun nisbəti. b) "Divani-Kəbir"- ilahi eşq təranələri.

Birinci hissədə mötəbər mənbələr əsasında Mövlananın həyatına nəzər salınmışdır. İkinci hissədə vəhdəti-vücud, ölüm, dünyanın faniliyi və digər sufi tezisləri müqayisəli şəkildə araşdırılmışdır. Üçüncü hissədə Məsnəvinin üslub xüsusiyyətləri ilə yanaşı məzmunu araşdırılmışdır. ""Divani-Kəbir" - ilahi eşq təranələri"ndə isə şairin qəzəllərinin xüsusiyyətləri tədqiq olunmuşdur.

### Giriş

Görkəmli alim Azadə Rüstəmova ədəbiyyatşünaslıq sahəsində sanballı tədqiqatları ilə öz imzasını qoymuş, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Sənai Qəznəvi, Xaqani Şirvani, Əvhədi Marağayi, Əssar Təbrizi və digər ədiblərin həyatı və yaradıcılığı haqqında araşdırmalar aparmışdır. XIII əsrin böyük şairi və dühası olan Cəlaləddin Ruminin həyatı və zəngin bədii irsi də alimin diqqətindən kənarda qalmamışdır. Belə ki, Azadə Rüstəmova şairin tərcümeyi-halından bəzi məqamlar, Mövlanada emanasiya nəzəriyyəsi, Mövlana şeirinin arxitektonikası və sənət özəllikləri haqqında maraqlı araşdırmalar aparmış və Azərbaycan oxucusunu onun bədii irsinin özəllikləri ilə tanış etmişdir. Mövlananın bədii irsi haqqında cildlərlə kitablar yazılmış və yazılmaqda olsa da, Azadə Rüstəmovanın onun haqqında apardığı araşdırmalar sufi ədəbiyyatının öyrənilməsi baxımından çox əhəmiyyətlidir. Müəllif bu zəngin irsin araşdırılması üçün Qərb, rus, İran, türk müəlliflərinin əsərlərindən bəhrələnmişdir. Qərb alimlərindən A.Y.Arberi, Y. Burgel, E.Meyeroviç, A.Şimmel, R.A. Nikolson və başqalarının adlarını çəkir. Rus alimlərindən A.Krımski, Petruşevski və Y.E.Bertelsin xidmətlərini yüksək qiymətləndirir. Alim İran alimi Bədiizzaman Foruzanfərin yaradıcılığından öz araşdırmasında istifadə etdiyini göstərir. Türk alimlərindən A.Karaxan, G.Evliyaoğlu, H.Yücel, Ə.Ataş, A.Kabaklı, M.Öndər və digərlərinin adlarını sadalayır. A.Rüstəmovanın Mövlana haqqında araşdırmalarını oxuduqdan sonra belə qənaətə gəlmək olar ki, o bütün adı çəkilən müəlliflərin fikirləri ilə tanış olmuş və özünün gəldiyi qənaətləri uğurla təqdim etmişdir.

Mövlananın özündən sonra qoyduğu zəngin bədii irs çox tədqiqatçılar tərəfindən araşdırılmışdır. Onun "Məsnəvi-ye mənəvi", "Divani-Kəbir" əsəri haqqında Azadə Rüstəmova maraqlı araşdırmalar təqdim etmişdir. Bunlardan başqa, Mövlananın "Fihi ma fihi", "Məcalisi-Səbə" və "Məktubat"ı da dövrümüzə qədər gəlib çatmışdır. Ruminin maraqlı əsərlərindən biri də "Fihi mə fih" (Onun içindəki içindədir) adlanır. Bu əsər Mövlananın müridlərinə, onu ziyarət edən şəxslərə, dost-tanışlarına söylədiklərinin sonradan yazıya alınması nəticəsində meydana gəlmişdir. Şairin oğlu

* *AMEA Nizami Gəncəvi adına Ədəbiyyat institutunun doktorantı*
*E-mail: rzayeva.nk@gmail.com*

Sultan Vələd və başqa müridləri Ruminin dediklərini toplayıb kitab halına gətirəndən sonra əsəri ona təqdim etmişlər, o da oxuyub demişdir: "Onun içindəki içindədir", yəni onun içindəki sözlər təriqətimdə olan sözlərdir.

Bu əsərdə müəllifin dünya və axirət, süluk və dərvişlik dərəcələri, iman və ibadət, mürid və mürşid münasibətləri, eşq və əxlaq məsələləri haqqında təsəvvüfi fikirləri verilmiş, Allah, Peyğəmbər, Quran, hikmət, surət, məna, ağıl, eşq, ruh, bədən və s. anlayışlar aydınlaşdırılmışdır. 76 bölmədən ibarət bu əsərin az bir qismi ərəbcə, çox hissəsi farscadır. Mətn əsasən nəsrlədir, bəzən şeir parçalarından istifadə olunur. Çox müxtəlif məsələlərdən danışılmasına baxmayaraq, söhbətlər bir-biri ilə əlaqələnir, bir-birini tamamlayır və əsər bütöv bir tam təsiri bağışlayır.

Mütəsəvvüf şairin "Məcalisi-səbə" əsəri də oğlu Sultan Vələdin və başqa müridlərinin topladığı öyüd-nəsihətlərdən ibarətdir. Bu əsərin də məğzini Tanrının qüdrəti barədə fikirlər təşkil edir; Onun böyüklüyü, vahidliyi, şəriksizliyi söylənir, vəsf olunur. Müəllif söhbətin mövzusuna uyğun olaraq tez-tez Qurandan ayələr, hədislərdən misallar, klassik şairlərin əsərlərindən örnəklər gətirməklə, müxtəlif hekayələr söyləməklə fikirlərini aydınlaşdırır.

Araşdırmalar onu göstərir ki, bu əsərlərlə Şəms Təbrizinin "Məqalat"ı və Mövlananın "Məsnəvi-ye mənəvi" əsərləri arasında çox oxşarlıqlar vardır. Bu bir daha onu sübut edir ki, bütün adı çəkilən əsərlər bir mənbədən, İlahi eşqin tüğyan etdiyi qəlbdən qaynamışdır.

**"Mövlana Cəlaləddin Rumi tərcümeyi-halından bəzi məqamlar"**

Müəllif "Mövlana Cəlaləddin Rumi tərcümeyi-halından bəzi məqamlar" adlı məqalədə şairin həyatı ilə bağlı olan çox mühüm məlumatlar vermişdir. Alim ilk növbədə Mövlana haqqında məlumat verən əsərlərlə oxucusunu tanış edir. Həmin əsərlər bunlardır: Mövlananın oğlu Sultan Vələdin (1226-1312) "Vələdnamə" – "İbtidainamə"si, Ruminin müasiri Fəridun Sipəhsaların "Risaləsi", şairin nəvəsi Əhməd Çələbinin sifarişi ilə qələmə alınan Şəmsəddin Əhməd Əflakinin "Mənaqib əl-arifin" əsəri və Mövlananın öz əsərlərini xüsusi qeyd etmək lazımdır. Mövlananın özünün müraciət etdiyi qaynaqlar isə atası Sultan ül-üləmanın "Maarifi" və Şəms Təbrizinin "Məqalat"ıdır. Alim Ruminin həyatının demək olar ki, bütün məqamlarına toxunur və onun keçdiyi yolu aydın şəkildə oxucusuna çatdırır. Burada Mövlananın həyatında böyük bir təlatüm yaratmış Şəms Təbrizinin gəlişindən, onların tanışlığı, Mövlananın yaradıcılığına təkanverici bir qüvvə olmasından geniş və əhatəli şəkildə bəhs olunmuşdur. "...Şəms öz təlimi və vəhyləri ilə Mövlana qarşısında yeni bir aləm açdı. Onun ideya və görüşləri münbit bir torpağa sirayət etmişdi" (5, 530).

Azadə Rüstəmova İran alimi B.Foruzanfərə istinadən yazıb: "1244-cü ilin payızında dünyagörüşünə əsaslı şəkildə təsir göstərən, şəxsiyyəti sehr və dumanlara bürünmüş bir nəfər sufi dərvişlə - Şəms Təbrizi ilə tanış oldu və bu tanışlıq onun sakit həyatını tamamilə alt-üst etdi. Mövlanə mədrəsəni, mühazirə və moizələri tərk etdi, xarici aləmlə praktik olaraq əlaqəni üzdü. Şəmslə olan təmasdan onun mənəviyyatına bir ayrı bucaqdan işıq düşmüşdü, o özündə tamamilə başqa xislət kəşf edirdi. Bu yaxınlıq onda mürgüləyən və mövcudiyyətindən heç kimin, hətta özünün belə xəbəri olmadığı fövqəladə ülvi hisslərə təkan verib onları oyatmışdı. Şəms onun üçün İlahinin Yer üzündəki təcəllasına çevrilmişdi... Saatlar, günlər, aylarla o, Şəmslə baş-başa verib ilahi söhbətlərə dalır və özünü ilahi nurlar aləmində hiss edirdi" (4, səh.11).

Alim ustad A.Gölpinarlının aşağıdakı sözlərinə də haqq qazandırır: "Şəms gəlməsəydi Mövlana Mövlana olmayacaq, sıravi şeyxlərdən bir şeyx, saysız sufilərdən bir sufi olacaqdı. Fəqət bu da mühəqqəq ki, Mövlana Şəmslə görüşməsəydi, Şəmsin də nə adı duyulacaqdı, nə sanı. Mövlana zatən bu coşqunluğa hazır idi. O, silinmiş, arınmış, zeytun yağı qonmuş, fitili yapılıb düzəldilmiş bir qəndildi adətən. Bu qəndilin yanması üçün bir atəş, bir qığılcım lazımdı. İştə Şəms ö vəzifəni gördü, fəqət o yağı tükənməyən, işığı Şəmsi belə göstərməyəcək qədər qüvvətli olan qəndil yanınca, Şəms də ona bir pərvanə kəsildi, canını verib onun işığına qarışdı. Şəms Mövlanaya bir ayna idi. Mövlana onda bütün varlıq aləmini ehtiva edən gerçəyi – özünü görür, özünə aşiq olur, özünü öyür" (5, 533).

Bu, həqiqətən də belə idi. Əgər belə olmasaydı Mövlana öz Divanını Şəmsin adına bağlamazdı. Adətən şairlər qəzəllərində öz təxəllüslərini yazardılar. Amma Şəms Təbrizi Mövlanaya elə böyük təsir etmişdi ki, artıq Şəms Mövlana, Mövlana isə Şəms olmuşdu.

از تبریز شمس دین روی نمود عاشقان
ای که هزار آفرین بر مه و آفتاب ما

*Təbrizdən dinin Şəmsi aşiqlərə üz tutdu*
*Ey ki, min afərin bizim Aya və Günəşə.* (6, qəzəl 48, beyt 7)

ز شمس الدین تبریزی منم قاصد به خون ریزی
که عشقی هست در دستم که ماند ذوالفقاری را

*Şəmsəddin Təbrizidən mənəm qan tökməyə qasid*
*Əlimdə bir eşq vardır ki, Zülfüqara oxşayır.* (6, qəzəl 57, beyt 9)

**Mövlana Cəlaləddin Ruminin sufi baxışları**

Onu da qeyd etmək lazımdır ki, A.Rüstəmova Mövlana yaradıcılığının ədəbi məziyyətləri ilə yanaşı onun fəlsəfi düşüncələrini də tədqiq etmiş və onun dühasının hərtərəfliliyini oxucusuna çatdırmağa çalışmışdır. Alimin tədqiqatlarına Cəlaləddin Ruminin "Məsnəvi-ye mənəvi" əsəri, "Fihi ma fihi" (Ondadır, o ki, ondadır) və "Şəms Divanı" daxildir. Burada ilk növbədə sufizmin yaranması, onun bir çox problemləri işıqlandırılmışdır. Müəllif haqlı olaraq qeyd edir ki, Mövlana kimi bir dühanın yaranmasının zəmini artıq IX-X əsrlərdən başlamış, XI-XIII əsrlərdə inkişaf etmiş və nəhayət XIII əsrdə özünün ən yüksək zirvəsinə çatmışdır. "Cəlaləddin Mövlana yaradıcılığı bütöv və tam şəkildə özündən əvvəl yaşayıb-yaratmış sufi şair və nəzəriyyəçilərini ehtiva edir. Ancaq bununla belə o son dərəcə orijinaldır, heç kəsi təkrar etmir" (2, s.542). Farsdilli sufi ədəbiyyatının köklərinə baxdıqda görürük ki, doğurdan da Mövlanadan əvvəl Əbu Səid Əbülxeyr, Xacə Abdullah Ənsari, Baba Tahir Həmədani, Sənai Qəznəvi, Fəridəddin Əttar və daha neçə sufi müəllifləri olmuşdur ki, əsərlərində öz baxışlarını təcəssüm etdirmişlər. Bu farsdilli ədəbiyyat inkişaf prosesi Mövlananın əsərlərində, xüsusilə "Məsnəvi-ye Mənəvi"də özünün təkamül səviyyəsinə çatmışdır. "Məsnəvi-ye mənəvi" əsəri o qədər dərin mənaları özündə ehtiva etmişdir ki, bu əsərə çoxlu sayda şərhlər və təfsirlər yazımışdır. Onlardan müasir İran alimlərindən Kərim Zamani, Bədiizzaman Foruzanfər, Məhəmməd Təqi Cəfərinin adını çəkmək olar. Qərb alimi Nikolson da bu əsərin həm tənqidi mətnini hazırlamış, həm də onun anlaşılmayan yerlərini izah etməyə çalışmışdır. Bütün bu təfsir və tərcümələr əsərin orijinallığından asılıdır ki, müəlliflər belə dərin məzmunlu əsərlə oxucularını tanış etmək istəmişlər. A.Rüstəmovanın yazılarından məlum olur ki, Mövlana antik yunan və Şərq fəlsəfəsini dərindən bilmiş, məşşai fəlsəfəsi, neoplatonçu fəlsəfə ilə tanış olmuşdur. Ümumiyyətlə, "Məsnəvi-ye mənəvi" əsərini oxuyarkən bu əsərin müəllifinin ensiklopedik bilgiyə malik olması qənaətinə gəlirik. Belə ki, alimin dediyi kimi, istər özündən əvvəlki sufi ədəbiyyatını dərindən bilməsi, istər yunan və Şərq fəlsəfəsi ilə tanışlığı, eyni zamanda İslam dinini incəliklərinə qədər bilməsi, İslam tarixindən misallar çəkməsi, Qurandan 760 dəfə iqtibaslar olunması Mövlananın həqiqətən çox böyük bir şair olması qənaətini yaradır.

جانی که رو این سو کند با بایزید او خو کند
یا در سنایی رو کند یا بو دهد عطار را

*Bir can ki, bu tərəfə üz tutsa, Bəyazidlə dostlaşar*
*Ya Sənayiyə üz tutar, ya Əttara ətir verər.* (6, qəzəl 24, beyt 15)

اگر عطار عاشق بد سنایی شاه و فایق بد
نه اینم من نه آنم من که گم کردم سر و پا را

*Əgər Əttar aşiq idi, Sənayi şah və üstün idi*
*Nə buyam mən, nə oyam, mən ki, özümü itirdim.* (6, qəzəl 60, beyt 6)

Alim Mövlananın Quran və hədislərdən istifadəsini belə qiymətləndirmişdir: “Və əlbəttə ki, bu müraciət yaradıcı müraciət idi. Mövlananı Quranın batini tərəfi, içi, mahiyyəti maraqlandırır, Quranın ruhu özünə cəzb edirdi. Yaradıcılığında şair mötəbər, dəqiqliyi şübhə doğurmayan hədislərə də çox yer ayırır və onlardan təqdim olunan bu və ya digər fikir, mülahizə, tezisin təsdiqi və izahı üçün bəhrələnirdi...” (5, s. 543). Tədqiqatçıların çoxunun gəldiyi qənaət budur ki, Mövlananın “Məsnəvi”, “Fihi ma fihi” və əlbəttə ki, “Şəms Divanı”nı yazmasının başlıca səbəbi Şəms Təbrizi olmuşdur. Şəmsin ideyaları onun əsərlərində öz əksini tapırdı. Buna görə də Mövlana mürşidi Şəms kimi Quranın zahirinə deyil, onun batininə diqqət yetirirdi. Azadə xanımın yuxarıdakı fikrinin dəqiqliyini sübuta yetirmək üçün Şəms Təbrizinin “Məqalat”ında Quranın batini haqqında dediyi sözləri qeyd etmək yerinə düşər:

"آنچه ترا برهاند بنده خداست نه بنشته مجرد. من اتبع السواد فقد ظل".

“Səni xilas edən Allah bəndəsidir, yalnız yazı deyil. Kim savad dalınca getsə, ziyana uğradı”.

"مراد از این کتاب الله مصحف نیست، آن مردی است که راهبر است، کتاب الله او ست، آیت اوست، سوره اوست، در آن آیت آیتهاست..."

O, hətta peyğəmbərin şəxsini Qurandan üstün sayıb deyir: “Bu Allah kitabından məqsəd Müshəf (Quran) deyil, o kişidir ki, rəhbərdir, Allah kitabı odur, ayət odur, surə odur, onda ayələrin ayəsi var...” (7, 18).

Şəms Təbrizinin fikrincə, təkcə savadlanmaq, yazıları oxumaq şərt deyil, əsas məsələ onları dərk edib öz həyatında tətbiq etməkdir. Buna görə də Mövlana və onun kimi sufilər zahirə yox, batinə fikir verir və batini gözəlliklərin tərənnümünə çalışırdılar. A. Rüstəmova Mövlananın emanasiya (şüalanma) nəzəriyyəsinin davamçısı sayır və qeyd edir ki: “Mövlana da aləmi gözəlliyi əks edən bir güzgü-ayna bilir, bu şüalanmanın əbədi, bitməz-tükənməz olduğunu göstərirdi”. (5, 544)

Mövlana yaradıcılığında əsas məsələ insanın təkamülə çatması yolunu göstərməkdir. Sufi müəlliflərin hər biri öz düzgün bildiyi vasitələrlə insanı kamala çatması yollarından bəhs etmişlər. Yaratdıqları əsərlərin süjet xətti də bu istiqamətdə qurulurdu. Məsələn, Xacə Abdullah Ənsarinin “Səd meydan” və ya “Mənazilüs-sairin” əsərində kamala çatmaq üçün məqamlar və hallardan bəhs olunmuşdur. Yaxud Fəridəddin Əttar “Məntiqüt-teyr” əsərində sufilərin yeddi eşq məqamından bəhs edir. Onun “Müsibətnamə” və “İlahinamə” əsərlərinin də süjet xətti insanı kamala doğru istiqamətləndirmək üzərində qurulmuşdur. Altı dəftəri əhatə edən “Məsnəvi-ye mənəvi” əsərinin hər bir dəftərində də insanı kamala çatdıran məqamlardan bəhs olunur.

Azadə Rüstəmova ilahi gözəlliklərin dərki məsələsindən sonra əqli-külldən bəhs edir ki, bu da sufi təfəkkürünün əsas aspektlərindən biridir. Alim bu barədə belə yazır: “Cəlaləddin Rumi yaradıcılığında da əksər sufi mütəfəkkirlərində olduğu kimi Mütləq varlıqdan – İlahi gözəllikdən sonra onun kosmoloji sistemində ikinci yeri “əqli-küll” tutur” (5, 549).

Müəllif haqlı olaraq bu məsələni də qabartmışdır. Əqli-küll məsələsi doğurdan da əvvəlki sufi əsərlərində geniş müzakirə olunan məsələlərdən biri olmuşdur. Məsələn, Əttarın “İlahinamə” əsərində üçüncü oğulun atasından istəyi cami-cəm, yəni əqli-küldür. Yaxud Şəhabəddin Söhrəvərdinin “Əql-e sorx” (“Qırmızı ağıl”), “Səfir-e Simorğ”, “Munisul-uşşaq” əsərlərində əqli-küldən geniş bəhslər açılmışdır. Əqli-küll və əqli-cüzün qarşılaşdırılması sufi əsərlərində çox təsadüf olunan məsələlərdəndir ki, burada onların hamısını qeyd etməyə lüzum yoxdur.

Alim Mövlananın dörd ünsür nəzəriyyəsinə də toxunmuşdur: “Şairin dörd ünsür nəzəriyyəsi ilə bağlı fikirləri: Mövlana hər bir vücudun və nəsnənin tərkib hissəsi olan dörd ünsürü (ab, atəş, xak, bad) obrazlı şəkildə ayaqları bağlı dörd quşa bənzədir və küll-cüz nəzəriyyəsindən çıxış edərək bu quşların hər birinin son məqamda küllə – ilkinə qovuşmaq həsrəti ilə çarpışdığı fikrini irəli sürür: küll daima öz cüzini özünə çəkir və quşlar bu məqsədə çatmaq üçün bir-biri ilə mübarizə aparır, ayaqlarındakı bağları qırmağa çalışırlar. Ona görə də həmişə hərəkətdədirlər. Bu hərəkətin əsasında isə eşq-məhəbbət və cazibə durur” (5, 550).

Azadə Rüstəmovanın qeyd etdiyi bu nəzəriyyənin əsasını Əbu Əli Sina “Risalətüt-teyr” əsərində qoymuş, daha sonra bu məsələ Qəzali qardaşları, Şəhabəddin Söhrəvərdi və Əttar yaradıcılığında öz zirvəsinə çatmışdır. Cəlaləddin Rumi də özündən əvvəlki sufi ideyalarını interpretasiya edərək daha gözəl və cazibədar bir şəkildə təsvir etmişdir (7).

Alimin araşdırmalarına əsasən, deyə bilərik ki, Mövlananın dünyagörüşünün əsasını vəhdəti-vücud konsepsiyası tutur. “Şair dəfələrlə vurğulayır ki, hər şeyin əsası o Vahiddir, yalnız tək, bir cövhər mövcuddur ki, omim şüası çox cəmlərdə öz inkiasını tapır – cəmlər isə bütövün atributlarıdır. Buradan da “vəhdəti-vücud” nəzəriyyəsi – cüzün küllə, damcının dərya ilə, görünən şəhadət aləminin ilahi aləmlə birliyi ideyası meyadana çıxır” (5, 555).

Bildiyimiz kimi, “vəhdəti-vücud” nəzəriyyəsinin əsasını Rumidən hələ çox əvvəl sufi müəllifləri öz əsərlərində qoymuşlar. Bu nəzəriyyənin ən kamil nümunəsi isə Fəridəddin Əttarın “Məntiqüt-teyr” əsəridir. Əsərdə qeyd olunur ki, şanapipik quşlara Qaf dağında Simurğ adlı bir quşun olduğunu məlumat verir, “Hamının padşahı olduğu üçün bizim niyə padşahımız olmasın?” deyir. Buna görə quşlar istidə, soyuqda, dağlardan, səhralardan, dənizlərdən keçərək Simurğun hüzuruna tələsirlər. Onların çoxu yolun çətinliklərinə dözməyib yarı yolda həlak olurlar. Hüzura çatan otuz quş (fars dilində “si morğ”) özlərinin Simorğ olduğunu görürlər. Bu nəzəriyyənin izahına Mövlananın əsərlərində də müxtəlif alleqorik hekayələrdə rast gəlirik ki, onun da bu ideyanı dəstəklədiyinin qənaətini yaradır.

“Ölüm və ölüm qarşısında qorxunu dəf etmək Cəlaləddin Rumi təlimində başlıca problemlərdən biridir” (5, 557). Alimin bu fikrindən çıxış edərək deyə bilərik ki, ölüm məsələsinə sufi ədəbiyyatında iki baxımdan yanaşılmışdır. Biri insanın təbii ölümüdür ki, bunun özü də bəziləri üçün dəhşətli, bəziləri üçün həqiqət qapılarının açarı kimi görünür. Amma demək olar ki, bütün sufi müəlliflər insanın elə sağ olarkən əbədilik qazanmasının yeganə yolunu cisminin ölməsi və ruhunun dirilməsində görürlər. Elə bu dünyada insan maddi nemətlərdən üz çevirməklə öz gəldiyi yerin, məna aləminin gözəlliklərini müşahidə edə bilər ki, Mövlananın “Məsnəvi” əsərində bu məsələ ana xətt kimi qabardılır. Qeyd etmək lazımdır ki, təkcə Mövlanada deyil, bütün sufi müəllifləri bu dünyanın insanı heyran edib öz tələsinə saldığını vurğulayırlar. Ona görə də çoxları insan ruhunu quşa bənzədirlər ki, əgər quş dünya bağlarını ayağından aça bilsə, öz əvvəlki yerinə qayıda bilər.

“Belə ölüm, sufizmdə öndə qeyd edildiyi kimi, “bəqa bəd əl-fəna” (fənadan sonra bəqa) adlanır. Mövlana simvollarla danışır. Yəni: təriqət yolçusu – salik bu məqama yetişmək üçün seyri-sülukun bütün riyazət və mücadilə yollarını keçməli, ən mühüm həqarət dünyanın napaklıqlarından təmizlənməli və İnsana – insanlığa Tanrı həqiqətlərini çatdırmaq kimi şərəfli bir missiyanı öz üzərinə götürməlidir” (5, 562-563).

Bütün bunlar və insanı nicata aparan digər yollar haqqında məsələlər Mövlana yaradıcılığında vardır ki, Azadə Rüstəmova onların hər birini ayrılıqda izah etmişdir.

**Mövlana şeirinin arxitektonikası və sənət özəllikləri**

Bu araşdırma iki hissəni əhatə edir: a) “Məsnəvi”nin üslubi xüsusiyyətləri. Mövlanada iç və dış məzmun nisbəti. b) “Divani-Kəbir”- ilahi eşq təranələri.

Cəlaləddin Rumini bütün dünyada tanıdan, sevdirən və şöhrətləndirən onun məşhur “Məsnəvi” əsəridir. Ümumi həcmi 26 min beyt olan bu əsəri böyük sufi şair Əbdürrəhman Cami (1414-1492) “pəhləvi dilində Quran” adlandırmışdır. Bu əsəri onun müridi Çələbi Hüsaməddinə yazdırırmış.

“Məsnəvi” məzmunca çox zəngindir. Orada müxtəlif məsələlərdən bəhs edilir. Daha çox Allah, Peyğəmbər, Quran, İlahi eşqdən danışılır. Bundan başqa, əsərdə qəzavü-qədər, insan iradəsi, mistik vətən sevgisi, nəfsin tərbiyəsi, əxlaqi kamilləşmə və s. barədə maraqlı fikirlər vardır. Mövlana özü belə hesab edirdi ki, “Məsnəvi”nin məqsədi Allah kəlamı olan Quranı – İlahi sirləri insanlara izah etmək, Peyğəmbər hədislərinin mənasını aydınlaşdırmaqdır.

“Məsnəvi”də təsəvvüfün müxtəlif məsələlərinə dair, o cümlədən qəlbin Allah evi olmasına, nəfs-ağıl, elm-mərifət, qənilik-yoxsulluq, surət-məna nisbətlərinin şərhi verilmiş çoxlu hekayə və rəvayətlər də vardır ki, bunlar əsərin məna siqlətini, məzmun zənginliyini göstərən atributlardır.

“Məsnəvi”nin orijinal quruluşu vardır. Əsər 6 cilddən ibarətdir. Hər cildin əvvəlində kitabın əsas məzmununu ifadə edən ön söz verilir, sonra müxtəlif əxlaqi-didaktik məsələlərdən bəhs edən əhvalatlar danışılır. Əhvalatların əvvəlində hər hansı bir nəzəri-irfani fikir söylənir, sonra bu fikir Quran ayələri, yaxud hədislərə istinadən əsaslandırılır, sonda isə deyilən fikirlərlə səsləşən, Mövlananın dünyaduyumuna uyğun bir təmsil, hekayə, lətifə, yaxud tarixi rəvayət verilir və mətnin hissələri bir-birinə bağlanmır. Hər mövzu müəyyən əhvalatın təsviri ilə başlayır, sonra bu əhvalat yarımçıq kəsilir, başqa bir uzun hekayət danışılır; bu hekayət qurtardıqdan sonra yenə yarımçıq qalmış əhvalatın davamı verilir, bəzən birinci əhvalat bir neçə dəfə yarımçıq saxlanaraq başqa rəvayət söylənir və əsər ağır oxunur, darıxdırıcı olur.

Azadə Rüstəmovanın fikrincə Mövlana bu əsərində özünəməxsus bir üsuldan istifadə etmişdir: “...Sonuncu üzərində xüsusi dayanmağı lazım bilirik. Çünki Mövlana yaradıcılığında xalq hekayələri, ibrətamiz rəvayətlər, təmsillər, atalar sözləri xüsusi, aparıcı mövqedədir və şair öz dünyaduyumunun açımında məhz zəngin və əlvan xalq bədii təfəkkürünə daha çox müraciəti üstün bilmişdir. Bu üsuldan hələ şairin sələfləri – Sənai öz “Hədiqətül-həqiqə”sində, Əttar “İlahinamə” və “Əsrarnamə”sində bəhrələnmişdi” (5, 596).

Mövlana şeirinin başqa bir özəlliyi budur: “Mövlana poeziyasının özünəməxsusluğunu da məhz olduqca mürəkkəb fəlsəfi konstruksiyanı son dərəcə aydın, anlaşıqlı bədii mətnlə əsaslandırmasında görmək lazımdır. Mövlana arifanə fikirlərini yalnız sufi mürid və tələbələrinə deyil, bütün təbəqələrdən olan geniş xalq kütləsinə çatdırmağı məqsəd görütmüşdü” (5, 596).

“Məsnəvi” Mövlananın eşq dünyasının təcəllası olsa da, ondan əvvəl eşqi tərənnüm edən qəzəllər yazmışdır. Əksəriyyəti lirik üslubda, qəzəl və rübai janrlarında olan bu şeirlər Cəlaləddin Ruminin “Divani-Kəbir” – “Böyük Divan” kitabında toplanmışdır.

Çox müxtəlif mövzuları əhatə edən bu şeirlərin ana xətti İlahi eşqin tərənnümüdür. Rumi orta əsrlərin mistik təfəkkürünə uyğun olaraq eşqi insan qəlbinə nazil olan bilgi nuru və Tanrı feyzi kimi mənalandırır. Mistik təfəkkürə görə, eşq insanı öz tanrısına doğru aparan, ona qovuşduran mənəvi qüvvədir. Eşq insan ruhunu daim yüksəlişə – öz ilkin məskəninə çağırır, çoxluğu Vahidə, cüzi küllə – Allaha qovuşdurur. Cəlaləddin Rumi eşqi varlığın, diriliyin əsası, həyat cövhəri, batini işıqlanma kimi mənalandırır:

شد خارها گلزارها از عشق رویت بارها
تا صد هزار اقرارها افکند در ایمان ما

*Üzünün eşqindən tikanlar dəfələrlə gülzar oldu*
*Yüz min etirafları bizim imana saldılar*

ای صورت عشق ابد خوش رو نمودی در جسد
تا ره بری سوی احد جان را از این زندان ما

*Ey əbədi eşq surəti cisimdə xoş üz göstərdin*
*Cana bu zindanlardan Əhədə tərəf yol göstərənsən* (6, qəzəl 29, beyt 5-6).

Gördüyümüz kimi, bu beytlərdə şair eşqi gülzara çevirən, ruhu bədəndən Allaha tərəf aparan hidayətçi adlandırmışdır. Demək olar ki, bütün Divan əvvəldən axıra kimi eşqin belə vəsfləri ilə doludur.

“Bütün “Divan”dan qızıl xətlə yaxıb-yandırıcı ülvi, müqəddəs bir eşq dastanı keçib-gedir. Bu eşq adi, keçici eşq deyil, Allaha-haqqa-İlkinə yönəlmiş İlahi eşqdir. Burada çox zaman məşuq-aşiq vəhdətdə alınır. Məşuq deyiləndə ilk öncə Haqq nəzərdə tutulur” (5, 615).

Azadə Rüstəmova “Məsnəvi” ilə “Divan”ın müqayisəsində yazır: “Lakin “Məsnəvi” fəlsəfi-irfani, didaktik əsər, “Divan” irfani-lirik şeirlər toplusudur. “Məsnəvi” – Mövlananın təsəvvüfi görüşlərinin daha çox nəzəri açımına ünvanlanmış, “Divani-kəbir”də məslək yolçusu arifin haqqa çatmaq və ona qovuşmaq uğurundakı əməli seyrü-süluku öndədir, aparıcıdır” (5, 614).

Müəllif Azadə Rüstəmova “Divani-Kəbirin” qəzəllərinin məzmun xüsusiyyətlərini çox geniş şəkildə araşdırmışdır. Belə ki, qəzəllərdə insan xislətindəki mənəmlik, hərislik, lovğalıq, təkəbbür...

kimi mövzuları pislənmiş, xeyirxahlıq, təvazökarlıq, səmimiyyət və s. insanı xüsusiyyətləri təriflənilir.

**Nəticə**

İstər Mövlana irsi, istər Azadə Rüstəmovanın onun haqqında apardığı araşdırmaların məziyyətlərini bir məqaləyə sığışdırmaq qeyri-mümkündür. Amma onu qeyd etməliyik ki, Azadə Rüstəmova Mövlana haqqında apardığı araşdırmalarla Azərbaycan ədəbiyyatşünaslığında yeni bir qapı açmış, ondan əvvəl və sonra yazılmış irfani əsərlərin tədqiqinə bir təkanverici qüvvə olmuşdur. Alimin öz sözləri ilə desək: "Bu yazıda Mövlananın irfan dünyasında gəzişərək buradakı bəzi məqamlara toxunuldu. Bu yazıda Mövlana – sənətkar mövzusuna da imkan daxilində səy göstərildi. Lakin Mövlana ucu-bucağı görünməyən sahilsiz bir ümmandır ki, onun tam təhlil və təhqiqi çox illər və çox yaradıcı qüvvə tələb edir".

## ƏDƏBİYYAT:

1.Gölpınarlı. (1959) M. Celaleddin. Hayatı, felsefesi, eserleri. Eserlerinden seçmeler, İstanbul
2. K. Mustafa. (1990) Tasavvuf ve tarikatlar tarihi. İstanbul
3. Kərimli Teymur. (2007) Mövlanə və müasirlik. AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun Elmi Əsərləri. Cild 20, Bakı, Elm
4. Rüstəmova Azadə. (2005) M. Cəlaləddin Rumi. Bakı, Elm
5. Rüstəmova Azadə. (2024) Seçilmiş əsərləri. İki cilddə, ikinci cild, Bakı, Elm
6. https://ganjoor.net/moulavi/shams/ghazalsh
7. مقالات شمس تبریزی. (1369) مصحح: محمد علی موحد. تهران-خوارزمی

## РЕЗЮМЕ

***Нармин РЗАЕВА***

***Наследие Мауланы в исследованиях Азады Рустамовой***

***Ключевые слова:*** *Азада Рустамова, Маулана, «Маснави-йи манави», диван*

В статье была рассмотрена тема наследия Мауланы в исследованиях Азады Рустамовой. Таким образом, исследование состоит из трех частей. Первая часть озаглавлена «Некоторые апекты биографии Мауланы Джалаладдина Руми», вторая часть называется «Суфийские взгляды Мауланы Джалаладдина Руми», третья часть названа «Архитектоника и художественные особенности поэзии Мауланы». Третья часть включает в себя два раздела: а) Стилистические особенности «Маснави». Соотношение внутреннего и внешнего содержания у Мауланы. б) «Дивани-Кабир» - гимны божественной любви. В первой части рассматривается жизнь Мауланы на основе достоверных источников. Во второй части в сравнительном контексте рассматриваются концепции вахдати-вуджуд, смерти, бренности мира и другие суфийские тезисы. В третьей части рассмотрено содержание «Маснави», его стилистические особенности. В «Дивани-Кабир» - гимнах божественной любви исследованы особенности газелей поэта.

## ABSTRACT

***Narmin RZAYEVA***

***The Heritage of Mevlana in Azada Rustamova's Research Works***

**Keywords:** *Azada Rustamova, Mevlana, Masnavi-ye Ma'navi, Diwan*

The article presents a study of the heritage of Mevlana in Azada Rustamova's research works and consists of three parts: The first part is titled "Several Points from Mevlana Jalal al-Din Rumi's Autobiography," the second part is titled "Sufi Views of Mevlana Jalal al-Din Rumi," and the third part bears the name "Architectonics and Artistic Features of Poems of Mevlana." The third part, in its turn, includes three chapters: 1. Stylistic Features of the Masnavi. The proportion of inner and outer content in Mevlana's works and 2. "Divan-i Kabir"—the Divine Love Melodies. The first part sheds some light on the basis of authentic sources on Mevlana's personal life. The second part presents a comparative study of the Sufi discourses as the unity of existence, death, transience, etc. The third chapter studies the content of the Masnavi together with its stylistic features. In the section titled Divan-i Kabir: The Divine Love Melodies, features of the ghazals of the poets are researched.